**Giriş**

«Cenevrə Çağırışı» - məqsədi  silahlı Qeyri-dövlət Aktorlarını (QDA) piyadalar əleyhinə minaların (PƏM) qadağan olunmasından başlayaraq hümanitar normalara hörmət və əməl etməyə vadar etmək olan beynəlxalq hümanitar təşkilatdır. «Cenevrə Çağırışı» beynəlxalq hümanitar hüququn universal tətbiq olunması prinsipinə əməl etməyi və öz fəaliyyətini bitərəflilik, ədalət və müstəqillik prinsipləri əsasında həyata keçirməyi öhdəsinə götürür.

«Cenevrə Çağırışı» müqavilələrin hazırlanmasında iştirak etməyən və müvafiq olaraq Piyadalar əleyhinə Minaların Qadağan edilməsi haqqında Müqavilədə (1997) təsbit edilmiş normalara bağlılığını ifadə etmək üçün özlərini öhdəliklə bağlı saymayan QDA-lar tərəfindən «Piyadalar əleyhinə Minaların Total Qadağan edilməsinə riayət edilməsi və Mina Aksiyalarında Əməkdaşlıq üzrə Öhdəliklər haqqında Akt»ı imzalanması ilə yeni mexanizm təklif edir. İsveçrə Respublikasının Hökuməti və Cenevrə Kantonu bu Aktın qəyyumları kimi çıxış edirlər.

«Öhdəliklər haqqında Akt»a görə QDA-lar öz öhdələrinə götürürlər:

- Bütün hallarda PƏM-in istifadəsinə, istehsalına, əldə olunmasına, ötürülməsinə və saxlanılmasına tam qadağana riayət etmək;
- Mina ehtiyatlarının ləğv edilməsi üzrə proqramları hazırlamaq, onların həyata keçirilməsində əməkdaşlıq və ya yardım etmək, minalanmış əraziləri təmizləmək, mina qurbanlarına kömək göstərmək və əhalinin daha da məlumatlanmasına yardım etmək;
- Monitorinq keçirmək və götürdükləri öhdəliklərin yerinə yetiririlməsi üzrə «Cenevrə Çağırışı»nın keçirdiyi monitorinq və qiymətləndirmədə əməkdaşlıq etmək;
- Götürdükləri öhdəliklərin yerinə yetiririlməsi və praktiki olaraq həyata keçirilməsi üzrə komandirlər və siravi əsgərlər üçün zəruri əmrlər vermək;
- Götürdükləri öhdəliklərə hümanitar normaların idealları ilə bağlı öhdəliklərin daha geniş spektrinin ilk addımı və ya hissəsi kimi baxmaq.

Birmada, Burundidə, Hindistanda, İraqda, Filippində, Somalidə, Sudanda, Türkiyədə və Qərbi Saxarada olan 34 silahlı qrup təklif olunan mexanizm vasitəsi ilə PƏM-in qadağan olunmasına razılıq verdilər. Lakin bu istiqamətdə əsas göstərici imzalanmış Aktların sayı deyil, hümanitar mina aksiyalarında səmərəli qadağan və təcrübədir. «Cenevrə çağırışı» mina təhlükəsindən zərər çəkmiş və QDA-nın nəzarəti altında olan rayonlarda mina aksiyaları üzrə hümanitar proqramların yerinə yetirilməsinə yardım etməyi, Aktı imzalamış qruplara götürdükləri öhdəliklərin yerinə yetirilməsində kömək etməyi və onların Aktın müddəalarına uyğun olması üzrə monitoriq  keçirməyi öz öhdəsinə götürür.